## *Qırmızı qəbirlər*

Ah, necə dəhşətli səhnədi, Allah,
İnanmaq istəmir göz gördüyünə.
Yanında suçumuz de nədi, Allah,
Niyə haqq işimiz düşüb düyünə?!

Bu nə cür savaşdı, bu nə cür dava?
Meyitlər ardınca hey meyit gəlir
Yoxdur xiyabanda bir boş yer daha,
Bu günün qəbiri sabah köhnəlir.

Məzarlar boya-boy geyib al-əlvan,
Düzülüb üstünə min-min qərənfil.
Bütün başdaşında şəkillər cavan,
Sənə sorğularla baxır elə bil.

Of,Allah,rəhmini niyə kəsibsən?
Haçan qurtaracaq bu qanlı oyun?
Bağrının başından daşmı asıbsan,
Bitməzmi qırğını tamam bir soyun?

Bu nə cür savaşdı, bu nə cür dava?
Meyitlər ardınca hey meyit gəlir.
Yoxdur xiyabanda bir boş yer daha,
Bu günün qəbiri sabah köhnəlir...

Qoy olsun! Dönmərik fəqət bu yoldan,
Bizə müqəddəsdir vətən torpağı.
Qurbanlar versək də qızdan, oğuldan,
Qoymarıq pozulsun yurdun növrağı.

Tarix danışacaq hünərimizdən,
Alqış söyləyəcək nəsillər bizə.
Əssə də qara yel üzərimizdən,
Zəfər nur saçacaq səhərlərimizə.

Bəli, bu qırmızı qəbirlərdəki
Azadlıq, istiqlal şəhidləridi.
Ulu babaları Koroğlu təki
Məğrur bir millətin igidləridi!!!

10 yanvar 1993

Babanlı V. Qırmızı qəbirlər : şeir // Azərbaycan harayı. – Bakı : Azərbaycan Respublika xatirə kitabı Redaksiyası, 2002. – S.38-39.